# Azərbaycan iqtisadiyyatı davamlı və dayanıqlı inkişafına sadiqdir

## Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında əldə olunan iqtisadi imkanlar hesabına həyata keçirilən sosial islahatlar barədə də danışıldı



**Dövlət başçısının sədrliyi ilə keçirilən iclaslarda qarşıya qoyulan möhtəşəm vəzifələrin həlli istiqamətində görülən işlərdən danışılır, proqnozlar müəyyənləşdirilir. Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında açıqlanan uğurlar əhəmiyyəti baxımından diqqət çəkdi.**

Qeyd olunduğu kimi doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artıb. İlin əvvəlindən neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinin ümumi gəlirlərə mənfi təsir göstərməsinə baxmayaraq, aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı davamlı və dayanıqlı inkişafına sadiqdir.

Müvafiq dövrdə qeyri-neft iqtisadiyyatının 6 faizdən çox artması da aparılan islahatların nəticəsidir. "Kənd təsərrüfatı ili"ndə aqrar sahədə 6,7 faiz artım, iri fermer təsərrüfatlarının yaradılması taxılçılıq sahəsində böyük dönüşə səbəb olmuşdur. Əldə olunan maliyyə imkanları isə sosial islahatların aparılmasını sürətləndirir.

Əhalinin sosial müdafiəsinin etibarlı təminatı dövlət siyasətinin dəyişilməz prioritetləri kimi daim diqqətdə saxlanılır. Cari ilin 9 ayında sosial sahədə aparılan islahatların uğurla davam etdirilməsi ölkə əhalisinin rahat həyat şəraitinin təminatına yönəldilir. Bunu şərtləndirən amillər isə çoxdur. Qeyri-neft sənayesinin, sahibkarlığın inkişafına göstərilən diqqət birbaşa sosial məsələ olan işsizliyin aradan qaldırılmasına, yeni iş yerlərinin açılmasına səbəb olur ki, bu da məşğul əhalinin sayının çoxalması, ailələrin ərzaq səbətinin tələbata uyğunlaşdırılması, pul gəlirlərinin artması deməkdir.

Azərbaycanda inflyasiyanın 3,7 faiz təşkil etməsi əhalinin pul gəlirlərinin isə 5,8 faiz artımı sosial sahədə tətbiq olunan mühüm layihələrin, aparılan islahatların məntiqi ifadəsidir.

Cari ilin altı ayının yekunlarına həsr olunan iclasda "Sosial sahədə bütün proqramlar icra edilir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, bu, təbiidir. Biz büdcəni qəbul edəndə neftin qiymətini 90 dollardan hesablamışıq, əslində indi 60 dollar səviyyəsindədir. Bir neçə ay bundan əvvəl daha da aşağı səviyyədə idi, əlli dollardan aşağı düşmüşdü. Ancaq bütün sosial proqramlar vaxtında icra edilir və bu da siyasətimizin əlamətidir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik" söyləyən Prezident İlham Əliyev 9 ayın statistik rəqəmləri ilə bağlı açıqlama verməklə görülən işlərin əhəmiyyəti barədə də danışmışdır. Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial -iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında az təminatlı ailələr üçün nəzərdə tutulan ünvanlı sosial yardım sahəsindəki müsbət dəyişikliklər, şəffaflığın təmin olunması istiqamətində görülən işlər diqqətə çatdırıldı.

Hazırda 500 minə yaxın insan, 114 min ailə ünvanlı sosial yardım alır və hər ailəyə dövlət tərəfindən orta hesabla ayda 153 manat yardım göstərilir. "Bu, çox yaxşı nəticədir və əminəm ki, gələcək illərdə yoxsulluğun aşağı düşməsi nəticəsində ünvanlı sosial yardıma möhtac olanların sayı daha da azalacaq. Bizim vəzifəmiz, - bunu biz artıq neçə ildir ki, bəyan etmişik, - ondan ibarətdir ki, yoxsulluq bir fenomen kimi Azərbaycandan tamamilə yığışdırılsın. Biz bu sosial bəlanı aradan götürməliyik" söyləyən Prezident İlham Əliyev əhalinin rahat həyat tərzinin təminatına yönələn digər məsələlər barədə də danışmışdır.

Ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimidir. Bunun hesabına Azərbaycanda işsizlik keçən ilin yekunlarına görə 5 faiz səviyyəsində olmuşdur. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsullluqla bağlı aparılan dövlət siyasətini yüksək qiymətləndirirlər. Azərbaycan xalqı isə bu irəliləyişi gündəlik həyatında hiss edir. Məşğulluq səviyyəsinin daha yüksək rəqəmlərlə ifadə olunması, iş yerlərinin yaradılması, əhalinin işlə təminatı istiqamətində görülən işlər müsbət nəticəsini verməkdədir. 9 ayda 87 min yeni iş yeri yaradılmışdır ki, onlardan 67 mini daimidir. İclasda yeni iş yerlərinin yaradılması yüksək dəyərləndirilməklə, həmçinin obyektiv və subyektiv səbəblərdən bəzi sahələrdə bağlanan iş yerləri ilə bağlı ətraflı danışıldı.

Əsasən iqtisadi məsələ olsa da, mahiyyət etibarı ilə əhalinin sosial şəraitinin yaxşılaşdırılmasına yönələn infrastruktur- kənd yolları, içməli su, kanalizasiya, qazlaşdırma ilə bağlı layihələrin icrası davamlı proses kimi diqqətdə saxlanılır. Hətta böhranlı illərdə düşünülmüş siyasət, reallığa əsaslanan proqramların tətbiqi, konkret fəaliyyət planına əsaslanan Azərbaycan iqtisadiyyatının inkişafı sayəsində sosial infrastruktur təkmilləşmiş, onun əhatə dairəsi genişlənmişdir.

Nazirlər Kabinetinin cari ilin altı ayının yekunlarına həsr olunmuş iclasında ölkə əhalisinin daha çox tələbat duyduğu bəzi sahələrdə mövcud olan nöqsanların qısa müddətdə aradan qaldırılması ilə bağlı tapşırıqlarını verən Prezident İlham Əliyevin ciddi və qəti tələblərinə qısa müddətdə əməl olunması verilən vədlərə sadiqliyin nümunəsidir. Dərman preparatlarının qiymətlərinin bazarın tələbatına uyğun tənzimlənməsi ilə bağlı verilən Prezident tapşırığının həlli istiqamətində önəmli addımlar atılmış, qabaqcıl ölkələrin təcrübəsi əsasında təkmilləşdirilmiş metodologiyaya uyğun konkret işlər görülmüşdür. Dövlət qeydiyyatına alınmış 2200-dək dərman vasitələrinin 25 faizdən çoxunun qiyməti yeni tariflər üzrə təsdiq edilmişdir. Vətəndaşlar tərəfindən böyük razılıqla qarşılanan qiymət tənzimlənməsi internet resursları, KİV-lər vasitəsi ilə əhaliyə çatdırılır, ictimai nəzarət təmin edilir, süni qiymət artımının, vergidən yayınma hallarının qarşısı alınır, vətəndaşların izafi xərcləri azalır. Eyni islahatlar aviabiletlərin qiymətləri ilə bağlı verilən tapşırıqların icrasında da hiss olunur. Belə ki , ölkə əhalisinin turizm üçün yaradılan şəraitdən səmərəli istifadəsinin təminatı üçün bütün beynəlxalq uçuşlar üzrə biletlərin tarif qiymətləri 2015-ci il avqustun 1-dən 20-30 faizədək aşağı salınmış, daha çox tələbat duyulan ən ucuz yerlərin sayı 30 faizədək artırılmış, bəzi istiqamətlər üzrə aşağı büdcəli reyslərin təşkilinə başlanılmışdır. Sosial əhəmiyyət kəsb edən mənzil-kommunal təsərrüfatı sahəsində bazar iqtisadiyyatı prinsiplərinə uyğun islahatların aparılması və xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni münasibətlərin təbliği, əhalinin mənzil idarəçiliyində yaxından iştirakı və digər tədbirlər davam etdirilir. Artıq Bakı şəhərində Mənzil Məcəlləsinin tələblərinə uyğun olaraq, mənzil mülkiyyətçilərinin cəmiyyətləri təsis olunur, onlardan 13-ü dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan brendi olan "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində sosial yenilik kimi xarici ekspertlərin də diqqətini cəlb edir. Artıq 6 milyon ölkə əhalisi "ASAN xidmət"ə müraciət etmişdir. Korrupsiya və rüşvətxorluq hallarının aradan qaldırılması üçün "ASAN xidmət"in funksiyalarının genişləndirilməsi sosial islahatlar sahəsində ən çox dəstəklənən yenilikdir. Əhalinin rahatlığının təminatı daim tənqid olunan şəhər nəqliyyatının fəaliyyəti ilə birbaşa bağlıdır. Məsələ ilə bağlı müzakirələrdə qeyd olunmuşdur ki, yeni şirkət olan "BakuBus"un yaradılması ilə nəqliyyatın intensiv hərəkətinin təminatı, sərnişin daşımasındakı mövcud nöqsanların aradan qaldırılması mümkün olacaq. Belə ki, gündəlik həyatımızda hiss etdiyimiz sosial yeniliklərin sayı gündən-günə artır. Dünya ölkələrinin üzləşdiyi mürəkkəb problemlər fonunda Azərbaycanın dayanıqlı inkişafı, sosial proqramların nəzərdə tutulduğu müddətdə reallaşması düşünülmüş strategiyaya əsaslanan və müasir dövrün tələblərinə cavab verən dövlət siyasətinin məntiqi nəticəsidir.

*Xuraman İsmayılqızı, "İki sahil"*